*İ.Qasımlı. Şəmsəddin Sivasinin həyatı və şəxsiyyəti*
*// Əlyazmalar yanmır, 2019, № 2 (9), s.63-65.*

UOT: 82.0

**İnci Qasımlı**
*filologiya üzrə fəlsəfə doktoru, böyük elmi işçi,*
*AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu.*
*Bakı ş. Hüseyn Cavid küç. 117.*
*e-mail: iqasml77@mail.ru*

# ŞƏMSƏDDİN SİVASİNİN HƏYATI VƏ ŞƏXSİYYƏTİ

*Şəmsəddin Sivasi 926/1520-ci ildə Tokatın Zilə qəsəbəsində doğulmuşdur. Xüsusilə Mənaqib-i İmam Əzəm, Mənaqib-i Göhər-yar-i-Güzin, Həşt-behişt, Süleymannamə, Gülşən-i-abad, Divan və Mövlud adlı əsərləri ilə məşhurlaşmış mütəsəvvif müəllifdir. Təhsilini bitirdikdən sonra İstanbulda bir müddət müdərrislik etmiş, dört Osmanlı sultanının (Qanuni Sultan Süleyman, II Səlim, III Murad, III Mehmed) hakimiyyəti illərində yaşamış, hamısından da hörmət və sevgi görmüşdür. Təsəvvüf qolu ilə diqqət çəkən Sivasi, Xəlvətiyyə təriqətinin Şəmsiyyə qoluna mənsubdur. 1006/1597-ci ildə vəfat edən müəllif Sivas Meydan Cami türbəsinə dəfn edilmişdir. Mənaqibnamələrdə onun bir çox kəramətləri qeyd olunmuşdur.*

***Açar sözlər:*** *Şəmsəddin Sivasi, təsəvvüf, kəramət, şeir, mövlud*

## Giriş

*XVI əsrin ikinci yarısında şəxsiyyəti ilə bərabər xüsusilə əsərləri ilə də şöhrət qazanmış tam adı Əhməd Şəmsəddin Əbus-Səna ibn Məhəmməd Əbil-Bərəkat ibn Arif Həsən əz-Zili əs-Sivasidir (7, 51a). Dəri rənginin qara olması səbəbi ilə Qara Şəms adı ilə də məşhur olsa da, bu gün Sivasda Şəms-i Əziz deyə tanınmaqdadır (2, 11).*

Atası Əbu-l-Bərəkat Məhəmməd əz-Zili, Amasyada Şeyx Həbib Qaramani xəlifələrindən olan Hacı Xızırın xəlifəsidir. Sivasi ilk təhsilinə başlamadan öncə atası tərəfindən 7 yaşında ikən Amasyaya şeyxi Xızır Əfəndinin duasını almaq üçün aparıldı. (6, 41a). Döndükdən sonra Zilədə olan məhşur alimlərdən ilk təhsilini almağa başladı. Sonra Tokata qardaşlarının yanına göndərilərək orada zamanın alimi adlandırılan Arakiyeçi-zadə Şəmsəddin Mahvi Əfəndinin dərslərindən aldı. 20 yaşında İstanbula gedərək Sahn mədrəsələrinin birində müdərrislik etdi. Bir müddət sonra istefa edərək Şama getdi. Bir ilə yaxın zamanda Həcc vəzifəsini yerinə yetirərək Ziləyə döndü. Qaynaqlarda onun üç dəfə Həccə getdiyi bildirilmişdir (7, 40a-b; 6, 66). Sivas valisi Həsən Paşa Sivasda 1564-cü ildə tikdirdiyi Yeni Cami (Meydan Cami) üçün şeyx axtarışında idi və ona Şəmsəddini məsləhət görürlər. Buna görə də vali onu Sivasa dəvət edir. Şəmsəddin atasının və şeyxinin izni ilə Sivasa gedir və bu camidə şeyxliyə başlayır (6, 55a, 164b; 3, 210b). Mənbələrdə Şəmsəddin Sivasinin III Məhmədin Egri səfərinə qatıldığı da bilinməkdədir. Belə ki, Mehmet Süreyyanın Sicilli-Osmani (5, 1-4) və İsmail Hakkı Uzunçarşılının Osmanlı Tarixi (4, 1-4) adlı əsərlərində Sultan III Məhmədin onun qardaşı oğlunu və xəlifəsi olan Əbdülməcid Sivasini İstanbula dəvət etdiyinə dair bir məlumat verilmişdir. Bu mənbəyə əsasən də Şəmsəddin Sivasinin bu səfərdə iştirak etməsinə şübhə qalmır (2, 17). Egri səfərindən döndükdən sonra səfər yorğunluğu və qışın soyuğundan rahatsızlanmış və bir müddət İstanbulda istirahət edən Şəmsəddin Sivasa dönməsi üçün Sultan III Məhməddən izin istəmiş, Sultan izn verməK istəməsə də sonunda razılaşmışdır (6, 74b,

75a; 3, II, 214b). O, Sivasa döndükdən qısa bir müddət sonra vəfat etmişdir (7, v.58A; 6, v.75a).

Rəcəb Əfəndi tərəfindən qılınan cənazə namazında altmış min insanın iştirak etdiyi bildirilməkdədir. Moizələr oxuduğu Meydan Caminin bağçasında dəfn olunmuşdur. Dəfnindən üç il sonra türbəsi tikilmişdir. Türbənin kim tərəfindən inşa olduğu məlum deyildir. Türbənin Meydan Caminin şimal tərəfində tikilməsinə baxmayaraq qapısı şərqə açılır. Qapının üzərində sülüs xətti ilə 50x32 ölçüdə kitabə vardır. Kitabədə yazılıb: Şehr-i Sivas içre cana işbudur

Şeyh Şemseddin kutbun meşhedi
Didi Fevri künbedi tarihini
Nurla dolsun musaffa merkadi

Türbənin bir qismi qübbəli və dar, qarşı kənarı daha geniş 6, 23 sm, uzunluğu isə 18, 96 sm-dır. İçində 21 qəbir vardır.

Şəmsəddin Sivasi və onun AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda qorunan əlyazmaları haqqında Azərbaycanda ilk dəfə prof. Azadə Musayeva "Əlyazmalar yanmır" jurnalının 2017-ci il 1(4) sayında geniş məlumat vermişdir. Məqalədə müəllif və onun buradakı "Mənazilil-arifin" əsərinin əlyazmasının elmi paleoqrafik xüsusiyyətləri və əsərin qısa xülasəsi göstərilmişdir (1, 73-76).







## Nəticə

*Şəmsəddin Sivasinin eyni zamanda yaxşı bir valideyn olduğu da bilinməkdədir. Qız və oğlan cəm olaraq 57 uşağı olmuşdur. (6, 80). Eyni zamanda onun sözünə sadiq, olduğu kimi görünən və hər kəsin də belə olmasını istəyən bir insan olduğu bilinməkdədir. Ərəbcə yazılarından da göründüyü kimi ərəb dilinin qrammatikasını və dilini də yaxşı bildiyi məlumdur. Farscadan tərcümə əsərlər meydana gətirməsi, farsca ədat və hərfləri haqqında qısa bir risalə təlif etməsi və ayrıca Ramazan gecələrində Məsnəviy-i Mənəviy-i oxuyub tərcümə etməsi onun eyni zamanda fars dilini də kamil bildiyi haqqında bizə məlumat verir.*

**Ədəbiyyat siyahısı:**

1. A.Musayeva. XVI əsr türkdilli nəsr abidəsi "Mənazilil-arifin" əlyazması. 2017. N1(4), s.73-76
2. Aşkun Vehbi Cem, Sivas şairleri, Sivas halkevi yayını, nr.13, Sivas 1948.
3. Hariri-zade Mehmed Kemaleddin Efendi, Tibyanü-l-vesali-l-hakaik fi beyani selasili-l-taraik, Süleymaniye Kütüphanesi, İbrahim Efendi Bölümü, nr.430-432, I,III.
4. İsmail Hakkı Uzunçarşılı, Osmanlı Tarihi, Türk Tarih kurumu yay, XIII, seri.no.16a, Dünya tarihi, Ankara 1947-1959, I-IV.
5. Mehmet Süreyya, Sicilli-Osmani, İstanbul 1308, I-IV
6. Müstakim-zade Süleyman Sadeddin Efendi, Hülasatü-l-Hediyye, İstanbul Üniversitesi, Türkçe Yazmalar Bölümü, nr.9686/13.
7. Receb bin İbrahim Cemaleddin Sivasi, Necmü-Hüda fi menakıb-ı eş-Şeyh Şemseddin Ebus-Sena, Süleymaniyye Kütübhanesi, Lala İsmail Bölümü, nr 694/2.

**Инджи Гасымлы**

**Жизнь и личность Шамсаддина Сиваса**

Шамсаддин Сиваси родился в 926/1520 в Зиле, Токат. Он является автором знаменитых рукописей, особенно «Манакиб-и-Имам Азам», «Манакиб-и-Гарар-и-Яр-и-Гузин», «Хашт-Бехишт», «Сулейманнама», «Гюльшен-и-Абад», «Диван» и «Мевлид». После окончания образования он провел некоторое время в Стамбуле, жил под властью четырех османских султанов (Великолепный султан Сулейман, II Селим, III Мурад, III Мехмед) и во всех отношениях был хорошо. Сиваси, который привлекает внимание к суфизму, принадлежит к шамсийскому рукаву секты Халватийя. Автор, который умер в 1006/1597 годах, был похоронен в могиле Сиваса Мейдана Джами. Рукописи содержат многие из его многочисленных рассказов.

***Ключевые слова:*** *Шамсаддин Сиваси, суфизм, чудо, поэма, мевлид*

**Inji Gasimli**

**The life and identity of Shamsaddin Sivasi**

Shamsaddin Sivasi, born in 926/1520 in Tokat/Zile, is a significant sufi who became famous for particularly his works titled Menakib-ı Imam Azam, Menakib-ı Cehar-yar-ı Guzin, Heşt-Behişt, Suleymanname, Gulşen-ı abad, Divan and Mevlid. After his education, he was appointed teacher in İstanbul for some time. He lived in the reign of for Ottoman Sultans ( Sulaiman, the Magnificent, Salim II, Murad III and Mehmed III) and was highly regarded by all apf them. He was also highly notable for his sufism as he established The Shamsiyya branch of The Halvatiyya Order. He passed away in 1006/1597 and laid to rest in the cemetery his poetry. He was also attributed many miracles in epics.

***Key words :*** *Shamsaddin Sivasi, sufizm, miracle, poem, mevlid*

Redaksiyaya daxil olma tarixi: 12.07.2019
Çapa qəbul olunma tarixi: 02.08.2019

Filologiya üzrə elmlər doktoru, professor
**Elman Quliyev** tərəfindən çapa tövsiyə olunmuşdur.